Əziz dost, Mən də bu məktubu həyatda bəlkə də heç vaxt qarşılaşmayacağım bir insana yazıram, amma buna baxmayaraq inanıram ki, biz də bir gün görüşə bilərik aramızda olanlara baxmayaraq sülh istədiyim kimi... Yazdığın məktubdakı fikirlərlə razıyam və münaqişənin həll yolunu yalnız sülhdə, danışıqlar prosesində görürəm. Mənim kimi düşünən gənclərin olmağı məni sevindirdi və içərimdəki sülh hissini oyandırdı.

Məktubunda qeyd etmisən ki, mən öz evimi göstərib "mən burada yaşayıram, içəri gir gedək çay içək, mənim sənə danışacaq çox şeyim var"deyə bilmərəm.Əslində isə bu belə deyil, mən də o günün gəlməyini ən az sənin istədiyin qədər arzulayıram və bu məktublarda belə ortaq fikirlərimizin olması dəyəri də bizi sülhə çağırır. Mən də inanıram ki, bizim örnəyimiz gələcəkdə nələrisə dəyişdirəcək və biz hər cür zorakılığa, münaqişələrə, arada olan nifrete son qoyacagiq.

Tofiqden Anais